# Vərəm haqqında 5 mif

*Mif – həqiqətdən uzaq olan, amma xalq arasında gerçəklik kimi qəbul edilən təsəvvürdür.*

**Mif 1**

***Vərəmlə yalnız qeyri-sosial həyat tərzi sürənlər, spirtli içki aludəçiləri, narkotik istifadəçiləri və ya yoxsulluq içində yaşayan insanlar xəstələnirlər. Bu, belə deyil!***

Vərəm çöpləri ilə hər kəs üzləşə bilər. Lakin vərəm mikobakteriyaları ilə yoluxmuş insanların xəstələnməsi mütləq deyil. Xəstəliyin inkişaf etməsi üçün immunitetin zəifləməsi, müntəzəm və düzgün olmayan qidalanma, tez-tez soyuqdəymə hallarının olması gərəkdir.

**Mif 2**

***Vərəm xəstəsilə birgə ictimai nəqliyyatda (şəhərdaxili) getmək kifayət edir ki, bu xəstəliyə yoluxub xəstələnəsən. Bu, belə deyil!***

Yoluxma üç şəraitdə mümkündür: vərəm mikobakteriyaları ifraz edən xəstə ilə uzun müddət bir yerdə olduqda, havada mikobakteriyaların yüksək konsentrasiyası zamanı və immunitet zəiflədikdə. İctimai nəqliyyatda qapılar daim açılıb-bağlandığından burada hava durğunluğu olmur. Bu da mikobakteriyaların "həyatı" üçün əlverişsizdir. Sərnişinlərin nəqliyyatda keçirdikləri vaxt qısamüddətli olduğundan vərəmlə yoluxma real deyil.

## Mif 3

***Vərəmin müalicəsi aparılsa da, ondan tam sağalmaq mümkün deyil. Bu, belə deyil!***

Müasir təbabətin köməyilə 70-80% hallarda vərəmin tam müalicəsinə nail olmaq mümkündür. Müalicənin uğurlu başa çatması isə çox vaxt pasiyentin özündən asılıdır. Xəstəliyin ilk əlamətləri aşkarlanan zaman pasiyent tibbi yardıma müraciət edərsə, müalicəsini davam etdirərsə, həkimin bütün məsləhətlərinə əməl edərsə, tam sağalma şansı böyük olar.

## Mif 4

***Vərəmdən müalicə illərlə davam edir və çox baha başa gəlir. Bu, belə deyil!***

Vərəmin müalicə müddəti təxminən 6-8 aydır. Pasiyentlər xəstəxanada yalnız onlarda mikobakteriyaların ifrazı dayandırılana kimi qalmalıdırlar. Bundan sonra xəstənin müalicəsi ambulator və ya ev şəraitində davam etdirilə bilər. Müalicə kursunu sona çatdırmaq MÜTLƏQdir!

## Mif 5

***Vərəmə qarşı effektiv peyvənd yoxdur, bu səbəbdən uşaqlara vurulan vərəm əleyhinə peyvənd (KJB) mənasızdır. Bu, belə deyil!***

KJB peyvəndi vərəmə yoluxma riskini azaldır və ən əsası vərəm infeksiyasının digər ağır formalarının baş verməsinin qarşısını alır. Bu peyvəndin aparılmasına qarşı çıxan valideynlər bununla övladlarını ciddi təhlükəyə atırlar.

---

Vərəqə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 226 nömrəli qərarı ilə təsdiq edilmiş “2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı”nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 5.1-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir. Vərəqədə dərc olunanlar Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu ilə razılaşdırılmışdır.